# «Azərbaycan Respublikası ərazisində səlahiyyətli orqanlar tərəfindən tutulmuş qaçaq malla əlaqədar məsələlərin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 23 oktyabr tarixli 278 nömrəli Fərmanına dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. «Azərbaycan Respublikası ərazisində səlahiyyətli orqanlar tərəfindən tutulmuş qaçaq malla əlaqədar məsələlərin tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 23 oktyabr tarixli 278 nömrəli Fərmanının 3-cü bəndinin I hissəsi aşağıdakı redaksiyada verilsin:

*«Tutulmuş qaçaq malı keçirməyə cəhd göstərənin şəxsiyyəti müəyyən olunduqda, həmin malın satışından əldə edilan pul vəsaiti minimum əmək haqqının beş yüz mislinədək məbləğdə olarsa — tam həcmdə, beş yüz mislindən bir min mislinədək məbləğdə olarsa — onun 80 faizi, bir min mislindyan beş min mislinədək məbləğdə olarsa — 60 faizi, beş min mislindən on min mislinədək məbləğdə olarsa — 40 faizi, on min mislindən yuxarı olarsa — 20 faizi qaçaq malı tutan orqanın hesabına, qalan hissəsi isə dövlət büdcəsinə keçirilsin.*

*Qaçaqmalı keçirməyə cəhd göstərənin şəxsiyyəti müəyyən olunmadıqda isə tutulmuş qaçaq malın satışından əldə olunan pul vəsaitinin 15 faizi malı tutan orqanın hesabına 15 faizi yerli büdcəyə, qalan hissəsi dövlət büdcəsinə keçirilsin».*

2. Fərmana aşağıdakı məzmunda 4-cü bənd əlavə edilsin:

*«Gömrük qaydalarının pozulması yolu ilə, o cümlədən qaçaq mal kimi keçirilən milli və xarici valyutanın 30 faizi həmin valyutanı tutan orqanın hesabına, qalan hissəsi isə dövlət büdcəsinə keçirilsin».*

***Azərbaycan Respublikasının Prezidenti***

***Əbülfəz ELÇİBƏY***

***Bakı şəhəri, 11 mart 1993-cü il***

***№ 485***

***«Azərbaycan Respublikasının Ali Sovetinin Məlumatı»nda dərc edilmişdir, 1993-cü il, № 5, maddə 152 («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*